Xalq qəzeti 2021.- 17 fevral.- S.5.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 34** **Bakı şəhəri, 13 fevral 2021-ci il**

**“Kənd təsərrüfatı müəssisələrində işçilərin əmək haqqının normativlərinə dair Tövsiyələr barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 31 may tarixli 109 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 31 may tarixli 109 nömrəli Qərarına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 5, maddə 359; 2005, № 11, maddə 1061; 2009, № 10, maddə 857) əlavə - “Kənd təsərrüfatı müəssisələrində işçilərin əmək haqqının normativlərinə dair Tövsiyələr”in 2.7-ci bəndinin ikinci abzası aşağıdakı redaksiyada verilsin:

“İşçinin razılığı ilə əmək haqqının 20 faizə qədəri mütənasib dəyərli natura formasında müəssisədə istehsal edilən istehlak malları ilə, lakin alkoqollu içkilər, 18 yaşına çatmamış işçilərə energetik içkilər, habelə tütün məmulatları, narkotik vasitələr, psixotrop maddələr və mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyəsi məhdud-laşdırılmış) digər əşyalar istisna olunmaqla, digər məişətdə işlədilən gündəlik tələbat malları ilə əvəz edilib verilə bilər.”.

***Əli ƏSƏDOV***

***Azərbaycan Respublikasının Baş naziri***